# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Bərdə Peşə Liseyinin Modernləşdirilməsi**



**İcra müddəti:** 02.10.2017 - 02.10.2021

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 1 398 301

**Ümumi büdcə:** € 1 553 669

**İcraçı təşkilat(lar):**
LOCAL GOVERNANCE ASSISTANCE PUBLIC UNION, Azerbaijan

**Sosial media hesablarına keçidlər:**
facebook.com/yerliidareetmeyeyardim/

**Internet səhifəsi:** www.lga.az/

**Layihənin təsviri:**

Layihənin əsas məqsədi Avropa standartlarına və təcrübəsinə uyğun olaraq, keyfiyyət, bərabərlik, uyğunluq və əlçatanlığın artırılması yolu ilə Bərdə peşə liseyində (BPL) peşə təhsili və təliminin müasirləşdirilməsidir.  Layihə BPL-də müasir təhsilin tələblərinə uyğun təşkilatçılıq və idarəetmə sisteminin yaradılması, emalatxana və sinif otaqlarının yenilənməsi və müasir avadanlıqlarla təchiz edilməsi, müəllim və təlimatçı heyətinin texniki bacarıqlarının artırılması, yeni dərs vəsaitlərinin/kurikum üzrə modulların hazırlanması, lisey və onun proqramları haqqında ictimai məlumatlılığın artırılması istiqamətində fəaliyyət göstərir.
Layihənin əsas hədəf qrupları: 1) BPL-in idarəetmə heyəti və müəllimləri; (2) cari və perspektivdəki tələbələr; (3) BPL-dən məzun olan tələbələr ilə maraqlanan özəl sektor və sahibkarlar. Bu hədəf qrupları üçün Layihənin əsas nəticələri Bərdə və ətraf rayonlarda (Ağdam, Tərtər, Yevlax, Ağcabədi, Beyləqan, Goranboy və Ağdaş) yaşayan gənclərə rəqabətədavamlılıq və bazarın tələblərinə cavab verən bacarıqlar aşılayan müasirləşdirilmiş peşə məktəbinin yaradılmasından ibarət olacaqdır.
Layihə Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, icra hakimiyyətləri, sahibkarlar ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir.

**Gözlənilən nəticələr:**

- İcma və özəl sektor tərəfdaşları ilə yaxından əməkdaşlıq etməklə yeni idarəetmə sistemi və təşkilati bacarığı olan müasir PTT mərkəzinin yaradılması;
- İkili PTT təhsili komponentləri olan nəticə yönümlü kurikulumun hazırlanıb təqdim edilməsi;
- Müəllimlərin akademik biliyi və texniki bacarıqlarının təkmilləşdirilməsi;
- Keyfiyyət Təminatı sisteminin yaradılıb işə salınması;
- BPL məzunlarına kənd təsərrüfatı üzrə əmək bazarının cari ehtiyaclarına uyğun olan bilik və bacarıqların verilməsi;
- İnnovativ və davamlı maliyyə mexanizmlərinin və mənbələrin müəyyənləşdirilməsi, icma və özəl sektor ilə əməkdaşlıq çərçivəsində institusionallaşdırlma;
- Əsas maraqlı tərəflərlə əməkdaşlıq etməklə müasirləşdirilmiş maddi-texniki baza və infrastrukturun müəllimlər və tələbələrin istifadəsinə verilməsi;
- BPL-in qabaqcıl təcrübə mərkəzi və icma üçün məşğulluq imkanları və bacarıqlarının yerli təchizatçısı kimi imicinin formalaşdırılması.